

# Ağdamın dirçəlişi: Lider qayğısı və iqtisadi gücün əməli ifadəsi

**2020-ci il Vətən müharibəsində əldə olunan Zəfər Azərbaycanın tarixi ədalətini bərpa etdi. Bu qələbə ilə ölkəmiz yeni bir mərhələyə, postmünaqişə dövrünün bərpa və inkişaf dövrünə qədəm qoydu. Prezident İlham Əliyevin strateji baxışları və siyasi iradəsi ilə bu mərhələnin əsas konturları artıq aydın şəkildə formalaşıb. Belə ki, işğaldan azad edilmiş ərazilərdə dövlət səviyyəsində bərpa, yenidənqurma və demoqrafik dirçəlişin kompleks proqramı həyata keçirilir.**

Dövlət başçısı İlham Əliyev müntəzəm olaraq azad olunmuş bölgələrə səfərlər edir. Bu səfərlər bölgədəki real vəziyyətin yerində öyrənilməsi, proseslərin şəffaflıq və məsuliyyət prinsipi əsasında həyata keçirilməsi baxımından önəmlidir. Prezidentin birbaşa iştirakı ilə təməli qoyulan sosial, inzibati və infrastruktur layihələri həm siyasi iradənin, həm də texniki idarəetmənin birbaşa sintezidir. Səfərlər nəticəsində konkret nailiyyətlər əldə olunur, layihələrin icra mərhələləri sürətlənir və ictimaiyyətə təqdim edilir. 2022-ci il noyabrın 16-da imzalanmış "Böyük Qayıdışa dair I Dövlət Proqramı" bu mərhələnin əsas idarəetmə çərçivəsini müəyyənləşdirdi. Əsas məqsəd əhalinin doğma torpaqlarına geri dönməsini təmin etmək, eyni zamanda bölgənin dayanıqlı sosial-iqtisadi inkişafını təmin edən müasir bir model qurmaqdır. Buraya həm də yaşamaq üçün əlverişli şəhərsalma, enerji, su və nəqliyyat infrastrukturu, innovativ kənd təsərrüfatı və sənaye obyektlərinin yaradılmasında daxildir.

Hökumət tərəfindən düşməndən təmizlənmiş bölgələr "inkişaf zonaları" kimi qəbul edilir. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları kənd təsərrüfatı, turizm, alternativ enerji, nəqliyyat və logistika sahələrində böyük potensiala malikdir. Beynəlxalq hava limanları, "Ağıllı kənd" və "Ağıllı şəhər" layihələri, dəmir yollarının və avtomobil magistrallarının çəkilişi bu regionların Azərbaycanın ümumi iqtisadi xəritəsində strateji əhəmiyyətini daha da artırır. Prezident İlham Əliyev dəfələrlə qeyd edib ki, bu böyük yenidənqurma prosesində insan kapitalının rolu əvəzolunmazdır. Yalnız texniki-inzibati resurslarla deyil, vətəninə bağlı, yüksək peşəkarlığa malik kadr potensialı ilə bu prosesin uğuru təmin olunur. Bərpa işlərində çalışan mühəndis, həkim, müəllim və memarların fəaliyyəti bu milli layihənin canlı daşıyıcılarıdır. Vətən müharibəsində qazanılan Qələbədən sonra Azərbaycanın işğaldan azad edilmiş ərazilərində həyata keçirilən yenidənqurma prosesinin ünvanlarından biri, şübhəsiz ki, Ağdamdır. 27 il işğal altında qalmış bu şəhər 2020-ci ilin noyabrına azad olunduqdan dərhal sonra burada bərpa və dirçəliş mərhələsi başlandı. Ağdamın taleyi yalnız fiziki viranlıqla deyil, həm də milli yaddaşda dərin iz buraxan ədalətsizliklə bağlı idi. Məhz buna görə də bu şəhərin yenidən qurulması təkcə bir urbanizasiya layihəsi deyil, milli ləyaqətin bərpası aktıdır.

Prezident İlham Əliyevin Ağdama səfərləri şəhərin bərpasının dövlət prioriteti səviyyəsində olduğunu təsdiqləyir. Hər səfər yeni bir obyektin təməli və ya açılışı ilə yadda qalır və real inkişafın göstəricisinə çevrilir. Bu səfərlərdən biri isə Ağdamın azad edilməsindən cəmi üç gün sonra - 2020-ci il noyabrın 23-də baş tutdu. Həmin gün Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ağdam şəhərində Azərbaycanın üçrəngli bayrağını ucaltması milyonlarla insan üçün azadlığın, ləyaqətin və gələcəyə ümidin simvoluna çevrildi. Prezidentin həmin gün səsləndirdiyi fikirlər dövlətin Qarabağda uzunmüddətli və dərinmiqyaslı fəaliyyətə hazır olduğunu açıq şəkildə ortaya qoydu. Ölkə başçısı qeyd etdi ki, Ağdam şəhəri erməni vəhşiliyinin şahididir.

Bu gün Ağdamda aparılan bərpa-quruculuq əvvəlcədən hazırlanmış strateji Baş plan əsasında icra olunur. Plan 2021-ci ilin mayında - Azərbaycanın Müstəqillik Günü ərəfəsində Prezidentə təqdim olundu və eyni gün Ağdam şəhərinin yenidən qurulmasının təməl daşı qoyuldu. Baş plan dünyanın aparıcı urbanistika şirkətlərinin iştirakı ilə hazırlanıb və müasir şəhərsalma prinsiplərini Qarabağın tarixi-mədəni irsi ilə sintez edir. Yeni Ağdam yalnız infrastruktur baxımından deyil, həm də sosial həyatın təşkili, ətraf mühitin qorunması, enerji səmərəliliyi və dayanıqlı iqtisadi fəaliyyət nöqtələrinə görə XXI əsrin şəhəri olacaq. Beş il ərzində Ağdamda məktəblər, xəstəxanalar, mədəniyyət mərkəzləri, sənaye parkları və yaşayış kompleksləri tikilib. Bu obyektlər xidmət məqsədilə, həm də insanların qayıdışına psixoloji zəmin yaratmaq üçün nəzərdə tutulub.

İyulun 18-də dövlət başçısının "Tabaterra" MMC-nin Ağdam Sənaye Parkındakı tütün məmulatları zavodunun açılışında iştirakı bu ərazilərdə sənaye fəaliyyətinin artıq real iqtisadi səmərə mərhələsinə keçdiyini göstərir. Ölkə başçısının müvafiq Fərmanına əsasən yaradılan Ağdam Sənaye Parkı işğaldan azad olunmuş ərazilərin iqtisadi reinteqrasiyası üçün strukturlaşdırılmış platformadır. 190 hektarlıq ərazidə salınmış park Qarabağın sənaye xəritəsinə yeni nəfəs gətirmək məqsədi daşıyır. Əsas prioritetlər sırasında tikinti materiallarının, kənd təsərrüfatı məhsullarının emalı və qablaşdırılması, ərzaq məhsullarının istehsalı, gübrə, yem istehsalı, həmçinin soyuducu kameraların və digər xidmət obyektlərinin yaradılması nəzərdə tutulur. Sözügedən istiqamətlər həm də regional əmək bazarının canlanmasını, demoqrafik sabitliyin bərpasını və sahibkarlığın inkişafını təşviq edir. Qeyd edək ki, hazırda Ağdam Sənaye Parkı rezident sayı baxımından Sumqayıt Kimya Sənaye Parkından sonra ölkədə ikinci yerdədir. Bu fakt bir daha göstərir ki, azad edilmiş ərazilərdə dövlətin yaratdığı investisiya mühiti sahibkarlıq üçün cəlbedici və etibarlıdır. 270 milyon manatdan artıq investisiya öhdəliyi ilə fəaliyyətə başlayan 30 şirkət artıq rezident statusu alıb, 4 şirkət isə qeyri-rezident kimi fəaliyyət göstərir. Ən əhəmiyyətlisi isə 650-dən artıq daimi iş yeri yaradılıb və bu vəzifələrə əsasən Ağdam və ətraf rayonların sakinləri cəlb olunub. Bu da "Böyük Qayıdış" proqramının iqtisadi təməlini formalaşdıran əsas amillərdən olduğunun göstəricisidir. "Tabaterra" MMC-nin Ağdamda istifadəyə verilən zavodu milli sənayenin mərkəzdən regionlara doğru şaxələndirilməsinin ilk nümunələrindəndir. Zavodun açılışı ilə Ağdam Sənaye Parkında fəaliyyət göstərən müəssisələrin sayı 10-a çatdı. Tütün məhsullarının istehsalı və qablaşdırılması kimi sahələrin regionlara daşınması, həm daxili bazarın daha çevik şəkildə təmin olunması, həm də ixrac potensialının artırılması baxımından strateji əhəmiyyət kəsb edir. Hazırda Azərbaycanda ümumilikdə 9 sənaye parkı fəaliyyət göstərir. Bunlar arasında Sumqayıt, Qaradağ, Pirallahı, Naxçıvan, Hacıqabul, Mingəçevir, Balaxanı, Ağdam və Cəbrayıldakı "Araz Vadisi İqtisadi Zonası" ön plandadır. Bu siyahıya əlavə olaraq 4 sənaye məhəlləsi - Masallı, Neftçala, Sabirabad və Şərurda yaradılıb.












Eyni gündə ölkə başçısı Ağdam şəhər 1 nömrəli tam orta məktəbin açılışını edib. Bu hadisə Azərbaycanın postmünaqişə dövründə həyata keçirdiyi milli dirçəliş strategiyasının mühüm təhsil sütununu təşkil edir. Əsası 2021-ci il mayın 28-də Prezident İlham Əliyev tərəfindən qoyulan təhsil ocağı "Böyük Qayıdışa dair I Dövlət Proqramı" çərçivəsində Ağdamın bərpa və sosial inteqrasiya prosesinin mərkəzlərindən birinə çevrilib. Müasir təhsil infrastrukturu, intellektual mühitin inkişafı üçün yaradılan imkanlar və gələcək nəslin formalaşmasına yönələn yanaşma bir daha sübut edir ki, dövlət yalnız şəhərləri yox, savadlı və vətənpərvər gələcəyi də inşa edir. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın hələ bu ilin fevralında məktəbdə aparılan tikinti işləri ilə tanış olması, layihənin strateji-mənəvi missiya daşıdığını nümayiş etdirdi. Məktəbin infrastrukturuna nəzər saldıqda yaradıcılıq, texnoloji bilik və vətəndaşlıq məsuliyyəti ilə formalaşan bir nəslin yetişməsi üçün nəzərdə tutulduğu aydın görünür. 43 sinif otağı, 16 inzibati kabinet və 7 STEAM otağından ibarət mərkəz yeni nəsil məktəb modelinin əsasıdır. Burada elm, texnologiya, mühəndislik, sənət və riyaziyyat sahələrinə dair praktik biliklər şagirdlərə daha erkən yaşdan aşılanacaq. Kimya, fizika və biologiya laboratoriyalarının müasir avadanlıqla təmin edilməsi, informatika otaqlarının yaradılması və çağırışaqədərki hazırlıq kabinetləri həm təhsil, həm də milli müdafiə baxımından dəyərli bir sinerji yaradır. 468 yerlik akt zalı, 352 nəfərlik yeməkxana, idman zalları və açıq hava meydançaları həm pedaqoji fəaliyyətin keyfiyyətini artırır, həm də məktəbi bölgənin mədəni və ictimai mərkəzinə çevirir. Ağdamda fəaliyyətə başlayan təhsil müəssisəsi həmçinin psixoloji baxımdan vacib bir təsirə malikdir.

İyulun 18-də Prezident İlham Əliyev həmçinin Ağdam şəhərində 1 nömrəli 160 yerlik körpələr evi-uşaq bağçasının açılışında iştirak edib. Bağçanın inşası "Böyük Qayıdışa dair I Dövlət Proqramı" çərçivəsində həyata keçirilmiş və 2023-cü ilin fevralında başlanan tikinti cəmi bir il ərzində tamamlanmışdır. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva bu ilin əvvəlində tikinti prosesinin gedişi ilə yerində tanış olmuşdular ki, bu da ali səviyyədə nəzarət və siyasi iradənin təzahürüdür. Bağçanın istifadəyə verilməsi təhsil sisteminin ən ilkin və həssas mərhələsindən, uşaqlıqdan başlanmasına dəlalət edir. Müasir tələblərə uyğun tikilmiş məktəbəqədər təhsil müəssisəsində uşaqların rahatlığı, təhlükəsizliyi və təlim-tərbiyəsi üçün hər cür şərait yaradılıb. Oyun və yataq otaqları, musiqi və rəqs zalları, eləcə də fiziki inkişaf üçün nəzərdə tutulmuş idman zalı bu bağçanı sıradan bir uşaq müəssisəsi deyil, formalaşan fərdiyyətlərin ilk təməllərinin atıldığı mərkəzə çevirir.

Beləliklə, müxtəlif müəssisələrin istifadəyə verilməsi Azərbaycanın postmünaqişə dövrü bərpa strategiyasının mərhələli, həm də kompleks inkişaf prinsipi ilə həyata keçirildiyini sübut edir. İstər sənaye parkında yaradılan istehsal müəssisələr, istər müasir məktəb binası, istərsə də körpələr evi Ağdamda həyatı yenidən canlandırır. Sənaye iş yerləri və iqtisadi canlanma deməkdirsə, məktəb bilik və gələcəkdir, uşaq bağçası isə qayğı və sabaha ümiddir.

**Nurlan ABDALOV,**
**"Respublika".**